# Kraliça Azərbaycan nümayəndələrinin çıxışını yüksək qiymətləndirib



## Böyük Britaniya Kraliçası II Elizabetin 90 illik yubileyi şərəfinə keçirilən tədbirlər başa çatıb







Böyük Britaniya Kraliçası II Elizabetin anadan olmasının 90 illik yubileyi münasibətilə mayın 12-də Londonda başlayan tədbirlərə mayın 15-də yekun vurulub.

Azərbaycan Respublikası Atçılıq Federasiyasından AZƏRTAC-a bildiriblər ki, yubiley tədbirlərinin rəsmi hissəsində 14 Qarabağ atı və 1 Dilbaz atı çapарı, habelə Fikrət Əmirov adına Dövlət Mahnı və Rəqs Ansamblının kollektivi olmaqla ümumilikdə 50 nəfərdən ibarət heyətlə iştirak edən Azərbaycan nümayəndələrinin çıxışları Böyük Britaniya Kral ailəsinin üzvləri və digər tamaşaçılar tərəfindən böyük maraqla qarşılanıb. Vindzor qəsrinin ərazisində keçirilən bu tədbirlərə hər gün on minlərlə insan tamaşa edib. Ümumilikdə 12 iştirakçı ölkədən 600 at və 900 nümayəndənin bir-birindən fərqli çıxışlarını televiziya vasitəsilə milyonlarla insan izləyib.

Azərbaycan təmsilçilərinə başçılıq edən Dövlət Sərhəd Xidmətinin zabiti, polkovnik Murad Nağıyev yubiley tədbirlərinin açılış və bağlanış mərasimlərində atçılıq meydanında Azərbaycan Respublikasının dövlət bayrağını dalğalandırıb. Mayın 15-də Kraliça II Elizabet yubiley tədbirlərində şəxsən iştirak edib.

Tədbirin əvvəlində Azərbaycan rəssamı Sakit Məmmədovun "Cıdır düzü" adlı rəsm əsəri Azərbaycan Respublikası Atçılıq Federasiyasının prezidenti Elçin Quliyev tərəfindən hədiyyə olaraq II Elizabetə təqdim edilib. Azərbaycan nümayəndə heyətinin tərkibində Londonda səfərdə olan əsərin müəllifi, məşhur rəssam Sakit Məmmədov əsərdə Cıdır düzü, milli adət-ənənələrimiz, at cinslərimiz, musiqi alətlərimiz, Şuşanın Xarı bülbülü və çövkən oyununun təsvir olunması barədə Kraliçaya məlumat verib.

Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidmətinin "Süvarilər" dəstəsinin çıxışı bütün iştirakçıların və tamaşaçıların xüsusi marağına səbəb olub. Tədbirin ən həyəcanlı hissələrindən biri olan "Süvarilər"imizin çıxışı milli cins atlarımız üzərində müxtəlif ekstremal hərəkətlərdən ibarət olub. Belə ki, at belində ayaqüstü çaparlıq, yüksək sürətlə hərəkətdə olan atın yəhərinin altında tam dövrə vurma, yəhərdə beli üstə uzanaraq tarazlığı qoruyub yüksək sürətlə hərəkət etmə və s. cəsur hərəkətlər böyük uğurla nümayiş etdirilib. Xüsusən çıxışın sonunda 3 at üzərində 6 çaparın piramida quraraq "Happy birthday" yazılı bayrağı və ardınca Azərbaycanın, daha sonra isə Böyük Britaniyanın nəhəng bayraqlarını açmaları tamaşaçıları xeyli coşdurub. Bununla da Kraliça II Elizabetin doğum günü təbriki qeyri-adi üsulla ifadə olunub. Atlarımızın ətrafında rəqs qrupunun çıxışı da şouya fərqli rəng qatıb.

Atlara xüsusi marağı və sevgisi olan Kraliça Azərbaycan nümayəndələrinin çıxışını yüksək qiymətləndirib.

Tədbirin sonunda Azərbaycan nümayəndə heyətinin hədiyyəsi II Elizabetin rəsmi sarayı olan Vindzor qəsrinə aparılıb.







